# AZƏRBAYCAN İQTİSADİYYATINDA XARİCİ İNVESTİSİYALAR

***Anar RZA***
*(Qafqaz Universitesi)*

***Ali TATLI***
*(Qafqaz Universitesi)*

Investisiyalar-həm pul, həm də real kapitala qoyulmuş vəsaitlərdir. Bu, pul vəsaitləri, kreditlər, qiymətli kağızlar, daşınar və daşınmaz əmlaka, intellektual mülkiyyətə və digər dəyərli sahələrə qoyulan vəsaitlər şəklində həyata keçirilə bilər. Real kapitala qoyulan investisiyalar (onları çox zaman kapital əmələ gətirən və ya qeyri-maliyyə aktivlərinə qoyulan investisiyalar adlandırırlar) əsas kapitalın təkrar istehsalına və bərpasına səbəb olurlar. Adətən, investisiyalar haqda danışanda, məhz bu o növ investisiyalar nəzərdə tutulur. Investisiyaların bu şəkildə müəyyən olunması iqtisadi səciyyə daşıyır.

Pul kapitalına qoyulan investisiyalara gəldikdə isə, (bu, maliyyə vəsaitlərinin kredit və qiymətli kağızlar şəklində qoyuluşdur) onların bir hissəsi dərhal real kapitala çevriləcək, ikinci hissəsi bir qədər sonra real kapitala çevriləcək, üçüncü hissə isə ümumiyyətlə real kapitala çevrilməyəcəkdir. (Bu əsasən hər hansı bir kompaniya tərəfindən buraxılan və ya alınan, sonra isə iflasa uğrayan qiymətli kağızlardır).

Başqa sözlə, pul kapitalına qoyulan investisiyalar-ölkənin gələcək investisiyalaşma üçün istifadə edə biləcəyi vəsaitlərdir. Investisiyaların praktik olaraq həyata keçirilməsi investisiya fəaliyyəti, bunu həyata keçirən şəxslər isə investorlar adlandırırlar.

Ölkə iqdisadiyatına İnvestorları cəlb eləmək üçün ölkədə gərək aşağıdakı faktorlar olsun.

- Ölkədə mövcud olan sosial – siyasi situasiya və onun perspektivləri.
- Daxili iqtisadi situasiya və onun inkişaf pespektivləri.
- Daxili iqtisadi fəaliyyət və onun perspektivləri.
- Dövlətin sahibkarlığa kömək siyasətinin stabil olması
- Güzəştli vergi rejimi
- Maliyyə vəsaitlərinin axınına şərait yaradan tədbirlər sistemi
- Innovasiya mərkəzlərinin yaradılması
- Müəssisələrə maliyyə yardımının göstərilməsi üçün firma şəbəkəsinin inkişafı
- Konsultasiya mərkəzləri
- Intellektual mülkiyyətin effektiv müdafiə sistemi

- Təsərrüfat fəaliyyətinin tənzimlənməsi prosedurasının sadələşdirilməsi
- Işçi qüvvəsi keyfiyyətinin yüksəldilməsi
- Informasiya texnologiyası və kommunikasiya vasitələri ilə tə'minatlıq dərəcəsi
- Müvəffəqiyyət əldə olunmasının orienterləri
- Yaradıcılıq azadlığı və s.

Hər hansı bir ölkəyə kapital qoyuluşu həmin ölkənin iqtisadi şəraitinin və siyasi iqliminin dərindən öyrənilməsini tələb edir.

Müasir dövrdə iri firmaların hamısı əvvəlcə ölkənin biznes infrastrukturunu və investisiya iqlimini müəyyən edir və daha sonra həmin ölkəyə investisiya qoyuluşu haqda fikirləşir.

Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:[1]

1. Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;
2. Tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;
3. Müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;
4. Torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;
5. Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Bunlardan başqa xarici investisiyaların tənzimlənməsi və qorunması sahəsində olan qanunvericilik sistemi əmək və sosial qanunvericilik sistemi ölkədə azad iqtisadi zonaların olması, vergi qanvericili və s. investisiya iqlimini formalaşdıran mühüm amillərdən hesab olunur.[2] Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş biznes infrastruturuna malik olan ölkələr investorları özlərinə daha çox cəlb edirlər. Investorlar belə ölkələri əlverişli investisiya iqliminə malik olan ölkələr kimi qiymətləndirirlər.

Sərbəst bazar iqtisadiyyatına keçiş müddətində olan Azərbaycan, təşkilati infrastrukturunu meydana gətirməyə və sənayedəki əksikliklərini tamamlamağa çalışmaqdadır. Fabriklərin bir çoxu xammal, köməkçi maddə və təchizat təmin

[1] «Xarici investisiyaların qorunması haqqında», «Investisiya fəaliyyəti haqqında» AR qanunları.
[2] http://www.tisk.org.tr/isveren_sayfa.asp?yazi_id=815&id=48

edilə bilməməsi səbəbiylə yarım tutum ilə çalışmaqdadır[3]. Ölkədə xüsusilə neft sahəsində ciddi miqdarda sərmayə girdisi təmin edilmişdir. Son illərdə bu miqdarın azalma meyli diqqət çəkməkdə, xarici sərmayənin ölkə iqtisadiyyatına qatqısı məhdud qaldığı görülməkdədir[4].

1994-cü ilin sentyabrında Azərbaycan dünyanın aparıcı neft şirkətləri ilə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin hissəsinin birgə kəşfiyyatına və işlənilməsinə dair "əsrin müqaviləsi" adlandırılan saziş bağlamışdır.

ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Yaponiya və Səudiyyə ərəbistanı neft şirkətlərinin iştirakı ilə konsorsium - Azərbaycan Beynəlxalq əməliyyat Şirkəti (ABəŞ) yaradılmışdır. Demokratik prinsiplərin daim möhkəmləndirilməsində, hüquqi dövlət yaradılmasında əldə edilmiş uğurlar, iqtisadiyyatda bazar münasibətlərinin inkişafı və dərinləşdirilməsi xarici sərmayəçilər üçün əlverişli şərait yaratmış və qısa müddət ərzində bir sıra perspektivli strukturların birgə kəşfiyyatı və işlənilməsinə dair daha 20 müqavilə bağlamağa imkan vermişdir. Müqavilələrə əsasən birbaşa xarici investisiyaların ümumi məbləği təqribən 60 milyard ABŞ dolları təşkil edir. 1997-ci ilin noyabrından ilk müqavilə üzrə neft hasilatına başlanmışdır və artıq 12 milyon ton xam neft çıxarılıb, Avropaya ixrac olunmuşdur. Bununla əlaqədar ümumi neft hasilatı artaraq, 9 milyon tondan 2000-ci ildə 14,1 milyon tona çatmışdır[5].

Xarici və yerli mütəxəssislərin hesablamalarına görə, neft hasilatı yaxın onillikdə 40-50 milyon tona, təbii qaz hasilatı isə ildə 18-20 milyard kubmetrə çatacaqdır. Beləliklə, Azərbaycanın neft sənayesinin yaxın onilliklərdə inkişafı Azərbaycan Respublikası Prezidentinin Neft Strategiyası çərçivəsində imzalanmış müqavilələrlə təmin edilmişdir. Neft sektorunun bütün əhəmiyyətinə baxmayaraq, ümumi daxili məhsulun formalaşmasında onun payı hələlik 18-19 faizdir, qalan məhsul isə maşınqayırma, qara və əlvan metallurgiya, kimya, neft kimyası, yüngül və yeyinti sənayesi, tikinti materialları istehsalı kimi sahələri əhatə edən iri sənaye potensialının, habelə ümumi daxili məhsulda xüsusi çəkisi 20 faizə yaxın olan kənd təsərrüfatının payına düşür.

İnvestisiyaların böyük qisimi neft sahəsinə yönəlmişdir. Amma son illərdə neftin xaricində qalan digər sahələrə edilən investisiyalar da artmaqdadır. Sərbəst ticarət bölgələrinin yaradılması qısa müddətdə milli iqtisadiyyat üçün fayda gətirə bilər. Bunun üçün xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi də lazımlıdır. Azərbaycanın xarici iqtisadi əlaqələrinin əhəmiyyətli istiqamətlərindən biri yerli iqtisadi inteqrasiya qruplarına qatılmasıdır. Qarışıq müəssələrin

[3] E. SANCAK -H. EYNALOV, **Azerbaycanda Yabancı Sermaye**, Qafqaz Üniversitesi, Bakü, 1999, s.69

[4] QƏHRƏMAN, Yavuz., Xarici Təşəbbüskar Baxımından Azərbaycan İqtisadiyyatının Swot Analizi, Dialoq, "Azərbaycan İş Dünyası jurnalı, 2004, Bakı, Ədəd 16. s. 48

[5] http://azerbaijan.news.az/index.php?Lng=aze&year=2007&Pid=18230

qurulması ölkəmizin inkişafına köməkçi olacaq. Bu iqtisadi inkişafı sürətləndirəcək[6].

**Cədvəl 34:** Neft Sektoru Xarici Xarici Sərmayə Yatırımı.-(1.000.000$)

| ÖLKƏLƏR | 1998 160.3 | 1999 67.8 | 2000 31.6 | 2001 11.8 | 2002 55.6 | 2003 30.4 | Toplam | Pay(%) |
|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 160.3 | 67.8 | 31.6 | 11.8 | 55.6 | 30.4 | 539.2 | 28.61 |
| ABŞ | 56.7 | 29.8 | 11.2 | 16.9 | 41.4 | 42.8 | 339.9 | 18.04 |
| İran | 40.7 | 9.2 | 2.9 | - | 2.7 | 0.1 | 60.1 | 3.19 |
| Almanya | 2.1 | 6.2 | 1.7 | 1.2 | 1.7 | 0.5 | 34.8 | 1.85 |
| Rusya | 10.3 | - | - | 1.4 | 0.7 | 1.6 | 22.5 | 1.19 |
| İngiltərə | 47.4 | 45.8 | 6.8 | 15.1 | 108.1 | 97.5 | 368.8 | 19.57 |
| Bolqarıstan | - | - | - | - | - | - | 0.1 | 0.01 |
| BAE | 16.6 | 7.6 | 2.8 | 0.7 | 0.2 | 1 | 39.3 | 2.09 |
| İsveçrə | - | - | - | 8.3 | - | - | 22.9 | 1.22 |
| Macarıstan | - | - | - | - | - | - | 0.1 | 0.01 |
| İtalya | - | - | - | - | - | 14.7 | 16.7 | 0.89 |
| İrlanda | - | - | - | - | - | - | 2.8 | 0.15 |
| Hindistan | - | - | - | - | - | - | 0.2 | 0.01 |
| Fransa | - | 25.4 | 39.3 | 7.6 | 25.7 | 14.7 | 112.7 | 5.98 |
| Singapur | 7.6 | - | - | - | - | - | 11 | 0.58 |
| Norveç | - | - | - | - | 31.6 | 25.6 | 57.2 | 3.04 |
| Yaponya | - | - | 16.4 | 4 | 23.7 | 17.4 | 61.5 | 3.26 |
| Digər ölkələr | 118.5 | 18.6 | 5.3 | 12.3 | 27.5 | 3.8 | 194.7 | 10.33 |
| **Cəmi** | 460.2 | 210.4 | 118 | 79.3 | 318.9 | 250.1 | **1884.5** | **100.0** |

**Mənbə:** Azərbaycan Dövlət Statistik Komitəsi nəşrləri-2003

Neft xarici sektorlarda isə ən böyük investor olan Türkiyəni İran, İngiltərə və digər ölkələr izləməkdədir. Azərbaycan iqtisadiyyatının modernizasyonu məqsədiylə dəyişik sahələrdə ehtiyac duyulan investisiyalar xüsusilə infrastrukturun modernizasyonunda, əhəmiyyətli bir rəqəmə çatmaqdadır.

Türkiyə Azərbaycanda 2003 ili etibarilə neft və təbii qaz sektoruna istiqamətli xarici sərmayə investisiyalarında ABŞ və İngiltərədən sonra üçüncü sırada, neft və təbii qaz xarici sektora istiqamətli xarici sərmayə investisiyalarında isə ilk sırada iştirak etmişdir.

ABŞ, İngiltərə, Türkiyə və Norveç Azərbaycana ən çox xarici sərmayə gətirən ölkələrdir. Türkiyədən Azərbaycana gedərək fəaliyyət göstərən enerji sektoru xaricində fəaliyyət göstərən firmalar: Karadağ Sement, Castel-(biracılık), Bakı Polad, Coca Cola, Pepsi Cola, Azercell, Bakcell, Koçbank, Bakı Otelçilik Şirkəti və Kənan İnşaat, Xəzinədar İnşaat kimi böyük firmaların adlarını söyləyə bilərik.

## Neft sektoruna edilən investisiya

[6] ANSETLİ, Azərbaycan Respublikasında Neft Sənayesinin Problemlərinin Həll Təklifləri, Elmi-əsərlər toplusu, Bakı, 1997, s. 510.

Azərbaycan enerji yataqları zəngini olaraq dünya ölkələrinin diqqət mərkəzindədir. ABŞ və müttəfiqlərin enerji təhlükəsizliyinin artırılması, neft və təbii qazın dünya bazarlarına sərbəstcə axışı müddət idiylə Xəzər hövzəsinin enerji müstəqilliyinin təmin edilməsi xüsusuna prioritet verilməkdədir[7].

Edilən bəzi hesablamalara görə Azərbaycan neft ehtiyatlamın 60-67 il içərisində tükənəcəyi ifadə edilməkdədir. Rus ekspertlərə görə isə bu müddət 25-35 ildir. Azərbaycanda Neft Sənayenə xarici sərmayə tərəfindən edilən investisiyaların məbləği aşağıda verilən cədvəldə qorxara görə detallı verilmişdir[8].

**Tablo 35:** Petrol Sanayine Ülkeler ve Türkiye'nin Sermaye Yatırımları

| İllər | Cəmi İnvestisiya Məbləği (Milyon $) | TPAO`in İnvestisiya Məbləği (Milyon $) |
|---|---|---|
| 1994 | 137 | 0,36 |
| 1995 | 360,1 | 53,91 |
| 1996 | 518 | 58,23 |
| 1997 | 976 | 89,47 |
| 1998 | 1012 | 113,57 |
| 1999 | 881 | 74,25 |
| 2000 | 809 | 47,11 |
| 2001 | 848,2 | 50,10 |
| 2002 | 1.693 | 173,86 |
| 2003 | 2.810,2 | 379,14 |
| Toplam | 10.044,5 | 1.040 |

**Mənbə:** ACDPŞ 2004 hesabatı

Azərbaycanda 2003 ili rəqəmləriylə adam başına düşən xarici investisiya 386.9 dollar təşkil edir. Neft razılaşmalarıyla Azərbaycanın iqtisadi gücü artmış, onun digər ölkələrlə əməkdaşlığına təsir göstərmişdir. Ölkədə neft axtarışı, geologiya, beynəlxalq pul transferləri, nəqliyyatdan da faydalanmışdır.

Artan neft və təbii qaz istehsalıyla birlikdə yeni infrastruktur yaradılmışdır ki, bununla da işsizlik problemi müəyyən ölçüdə həll edildi. Bütün sektorlarda olduğu kimi, neft sektorunda da investisiyalar 3 yerə ayrılar. Bunlar: Birbaşa İnvestisiyalar, Kreditlər və Portföy İnvestisiyaları. Neft sahəsində investisiyalar ortaq şirkətlər qurma yolu ilə də təmin edilər. Neft sənayesində investisiya və infrastruktur siyasətinin reallaşdırılması, investisiyanın istiqamətləndirilməsi üçün xarici təcrübədən istifadə oluna bilər. Xarici neft şirkətləri çox vaxt neft kimyasına da isvestisiya qoyurlar, bu Azərbaycanda da edilə bilər[9].

Enerji Sektorunda Fəaliyyət Göstərən firmaları BP, Unocal, ExxonMobil, Devon Energy (Pennzoil), TPAO, Statoil, Lukoil, Itochu, Agip, Chevron, ENİ,

[7] Həmdi Poyraz;**" Böyük Orta şərq Proyekti", Hərb Akademiyaları Bülleteni,Fevral 2004, s.23.**

[8] Çatsansa BOCUTOĞLU, Orta Asiya və Qafqaz 'dakı Vəziyyət və Avropa Təhlükəsizliyi, Qaradəniz Texniki Universiteti Mətbəəsi, Trabzon, 1998, s. 47.

[9] http://www.tika.gov.tr/Dosyalar/Azerbaycan.doc>

Halliburton, Schlumberger, Kvaerner, Axar Maritime və Barmek olaraq sıralaya bilərik.

Ayrıca neft şirkətlərinin çox böyük sərmayələrə neft və təbii qaz çıxaracaqları düşünüldüyündə, Xəzərdə balanslı, problemsiz bir statü yaradılması və hamar razılaşmalar ilə ortaya qoyulan və xərclənən pulların zəmanət altına alınması çox əhəmiyyətlidir. Statünün təyin olunmasının lazımlı bir mövzu olmasının altında yatan digər əhəmiyyətli bir xüsus da; kıyıdaş dövlətlərin heç birinin bölgənin hidrokarbon qaynaqlarını tək başına qiymətləndirə biləcək investisiya imkanlarına sahib olmaması və bu səbəblə uzaqgörənliklə bilər bir gələcəkdə bu mövzuda xarici investisiyalara, xüsusilə Qərbli maliyyə təşkilatlara ehtiyac duymalarıdır[10].

## Nəticə

1994-2004-cü illərdə Azərbaycan iqtisadiyyatının orta illik sürəti 10% təşkil edirdisə, 2004-2007-ci illər arasında bu göstərici bir neçə dəfə artaraq 2007-ci ildə 34%-ə çatıb. Son 4 il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. 2003-cü ildə büdcə 1,3-1,5 milyard ABŞ dolları səviyyəsində olub. 2007-ci ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevin təsdiq etdiyi 2008-ci ilin icmal büdcəsi 12 milyard ABŞ dollar təşkil edib. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə iqtisadiyyatına 40 milyard ABŞ dolları xarici investisiya qoyulub və 2007-ci ildən başlayaraq daxili investisiyaların həcmi xarici investisiyaları üstələyib. Həyata keçirilən islahatlar nəticəsində ölkədə yoxsulluğun səviyyəsi iki dəfə azalaraq 20%-ə enib. 2007-ci il həm də Azərbaycan iqtisadiyyatı üçün onunla əlamətdar olub ki, Azərbaycan hökuməti xarici ölkələrə investisiya yatırımlarına başlayıb.

[10] http://library.aliyev-heritage.org/az/3605265.html

## ƏDƏBİYYAT


1. «Xarici investisiyaların qorunması haqqında», «Investisiya fəaliyyəti haqqında» AR qanunları.
2. http://www.tisk.org.tr/isveren_sayfa.asp?yazi_id=815&id=48
3. QƏHRƏMAN, Yavuz., Xarici Təşəbbüskar Baxımından Azərbaycan İqtisadiyyatının Swot Analizi, Dialoq, "Azərbaycan İş Dünyası jurnalı, 2004, Bakı, Ədəd 16. s. 48
4. E. SANCAK -H. EYNALOV, **Azerbaycanda Yabancı Sermaye**, Qafqaz Üniversitesi, Bakü, 1999, s. 69-87
5. http://azerbaijan.news.az/index.php?Lng=aze&year=2007&Pid=18230
6. ANSETLİ, Azərbaycan Respublikasında Neft Sənayesinin Problemlərinin Həll Təklifləri, Elmi-əsərlər toplusu, Bakı, 1997, s. 510.
7. Həmdi Poyraz;" Böyük Orta şərq Proyekti", Hərb Akademiyaları Bülleteni,Fevral 2004, s.23.
8. Çatsansa BOCUTOĞLU, Orta Asiya və Qafqaz 'dakı Vəziyyət və Avropa Təhlükəsizliyi, Qaradəniz Texniki Universiteti Mətbəəsi, Trabzon, 1998, s. 47.
9. http://www.tika.gov.tr/Dosyalar/Azerbaycan.doc>
10. http://library.aliyev-heritage.org/az/3605265.html


### Summary

## FOREİGN İNVESTMENTS İN AZERBAİJAN ECONOMY


***Anar RZA***
*(Gafgaz University)*

***Ali TATLI***
*(Gafgaz University)*



Production decrease, inflation and shortage in investment were the major factors to impact the Republic's economy soon after the Independece was achieved. In the early years of the independent administration acknowledgement of national aims and state interests were very hard to acquire. All the hopes and attempts to resolve severe state socio-economic problems on its own were condemned to failure. Gradually, it was concieved that the most proper and advantageous way out of the problems was to attract foreign investors to the country. Specialists could easily realise that if otherwise the problems and restoration of the economic balance would have to extend for decades. The main factors affecting the local investment contribution were continuous decrease of total revenue in national profit amount, insignificant incentives in production & investment sector which resulted in backoff of the local investors to take part in economic activities. The time frame was the perfect instance to start resotration of physically and morally outdated major capital by modernization of the total infrastructure that was sentenced to collapce. Continuous fall in investment activities had certainly required serious attention especially if consider the parallel and rapid worldwide resotration and improvement of the financial capital on tha basis of modern methods and technics which were newly employed. It should also pointed out that long run investment shortage and crisis would certaily result in very serious and severe socio-economic problems, of not yet identified nature and scale. As a result the Foreign Economic Policy capturing the maksimum contribution and flexible and fertile basis for foeign investment to come and inject into the national economy was the economic issue of highest priority in importance.